# HACIQABUL

№ 09
(689)

26 aprel
2018-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti




# İnam və etimad qazanan Prezident

## Xalqımız yenidən "İlhamla irəli"ləməyə qərar verdi

Aprelin 11-də Cənab İlham Əliyev növbəti dəfə xalqının etimadını qazanaraq, 86,03 faiz səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə böyük nailiyyətlər əldə edib. Ölkə həyatının elə bir sahəsi yoxdur ki, orada uğurlar qazanılmasın, irəliləyişlərə nail olunmasın.

Prezident İlham Əliyevin apardığı genişmiqyaslı sosial-iqtisadi siyasət nəticəsində Azərbaycanın bütün bölgələri tanınmaz olub. Ulu öndər Heydər Əliyevin siyasi kursunu, ənənələrini uğurla davam etdirərək Prezident İlham Əliyev Azərbaycana yeni, gözəl, firavan bir həyat bəxş edib. Bütün bölgələrimizdə su və kanalizasiya, elektrik və qaz enerjisi sistemləri yenidən qurulub və bu istiqamətdə işlər davam etdirilir. Yüzlərlə yeni müəssisə, iş yerləri açılıb ki, bu da insanların güzaranının yaxşılaşması deməkdir.

Azərbaycanın qazandığı nailiyyətlər ən mötəbər beynəlxalq qurumlar tərəfindən qeyd olunur. Ölkəmiz bütün dünyada sayılıb-seçilən, nüfuzu olan bir ölkəyə çevrilib. Cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin yeni neft strategiyasını uğurla davam etdirərək neçə-neçə yeni qlobal layihəyə imza atıb. Son 15 ildə üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri istifadəyə verilmiş, onun ardınca "Şahdəniz" qazını ixrac edən Bakı-Tbilisi-Ərzurum kəməri çəkilmişdir. Bu gün ölkəmiz Avropanın enerji xəritəsini dəyişəcək "Cənub qaz dəhlizi" kimi nəhəng bir layihəyə lidrerlik edir. Bu gün Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu addım ataraq iqtisadiyyatın neftdən asılılığını aradan qaldırmaq üçün qeyri-neft sektorunun inkişafını təmin etmişdir. İndi Azərbaycanda qeyri-neft sənayesi, turizm, kənd təsərrüfatı və digər sahələr uğurla inkişaf etdirilir. Ölkəmizin böyük şəhərlərində, eləcə də rayonlarımızda sənaye parkları, sənaye məhəllələri yaradılır.

Bu gün ölkəmizdə aqrar sahə dinamik templə inkişaf edir. Prezident İlham Əliyev ənənəvi kənd təsərrüfatı sahələrindən olan pambıqçılığın dirçəldilməsinə, inkişafına, onun əvvəlki şöhrətinin geri qayıtmasına böyük önəm verir. Bu sahənin inkişafı üçün əməli tədbirlər görülməkdədir. Bu gün Azərbaycan kəndində həyat qaynayır, Azərbaycan kəndlisi pambıq əkir, yeni üzüm bağları salır, barama bəsləyir, tütün becərir, çörəyini halal zəhmətlə torpaqdan çıxarır.

Ölkədə yeni yollar çəkilir, körpülər salınır, müəssisələr açılır, məktəblər, xəstəxanalar tikilir. Bir neçə ay bundan öncə ölkə əhalisi Bakı-Tbilisi-Qars dəmiryolunun istifadəyə verilməsinin sevincini yaşadı. Hazırda Astara-Rəşt dəmir yolu çəkilir.Ələt DənizTicarət Limanının tikintisi aparılır. 15 il öncə cəmi bir aereport olan ölkəmizdə indi yeddi aeroport var ki, bunlardan altısı beynəlxalq, biri isə yerlidir.

Bundan əlavə uğurlarımızdan ən önəmlisi isə illərdir işğal altında olan torpaqlarımızın bir hissəsinin geriyə alınması, iki il əvvəl yaşadığımız zəfərli aprel günləridir, Lələtəpədə yüksələn Azərbaycan bayrağıdır.

Azərbaycan xalqı bütün bu zəfərlərə, uğurlara, inkişafa İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə nail olub. Xalq görür ki, bu inkişaf, bu irəliləyiş davamlıdır. Ona görə də aprelin 11-də seçki məntəqələrinə gələn insanların 86,03 faizi inandığı Prezidentinə səs verməklə onu yenidən Prezident görmək istəyib.

Aprelin 11-də keçirilən prezident seçkilərində hacıqabullular da öz aktivliyini nümayiş etdirdilər. Səhər tezdən insanların mütəşəkkilliklə dəstə-dəstə, böyük sevgi, ruh yüksəkliyi ilə məntəqələrə gəldiyinin şahidi olduq. Həmin gün rayonumuzda bir neçə məntəqədə olduq. Şəhər 5 saylı tam orta məktəbində yerləşən 11 saylı məntəqədə böyük qələbəlik var idi. Seçicilər deyirlər ki, seçki məntəqələrinə gələrək səs verməyi özlərinin vətəndaşlıq borcu hesab edirlər. Hacıqabullular hər zaman dövlətə və dövlətçiliyə öz sədaqətləri ilə seçiliblər. Bu məntəqədə seçkilərin şəffaf, demokratik keçirilməsi üçün hər bir şərait yaradılmışdı. 10 saylı məntəqədə də həmin qələbəliyin şahidi olduq. Məntəqənin ən yaşlı seçicisi 84 yaşlı Həmidov Əlipənah Əliqulu oğlu ilə söhbət edirik Uzun illər neftçi işləyib. Təqaüddədir. Qeyd edir ki, mənim real bir namizədim var, O da İlham Əliyevdir. Bir ağsaqqal kimi İlham Əliyevin timsalında Azərbaycanın uğurlu gələcəyini, sürətli inkişaf yoluna çıxaran qətiyyətli, müdrik rəhbər görürəm, ölkədə sabitliyin, əmin-amanlığın vətəndaşlarımızın rahat yaşayışının ən etibarlı təminatçısı olan bir insanı görürəm.

Seçki məntəqələrinə gələnlər arasında ahıl insanlar, ilk dəfə səs verən gənclər, ziyalılar, əmək adamları, hətta körpəsinin əlindən tutub gələn analar da var idi.

Bir sözlə bütün xalqımız kimi hacıqabullular da yenidən "İlhamla irəli"ləməyə səs verdi.

***"Hacıqabul"***

# Hacıqabul rayonunun sosial-iqtisadi inkişaf dinamikası birinci rübdə də davam etmişdir

***Aprelin 19-da 2018-ci ilin birinci rübündə Hacıqabul rayonunun sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş şura iclası keçirildi***

***Şura iclasında RİHB-nın şəhər, qəsəbə, kənd İƏD üzrə nümayəndələr, bələdiyyə sədrləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, rayonun ayrı-ayrı idarə, müəssisə, təşkilat rəhbərləri, sahibkarlar, torpaq mülkiyyətçiləri iştirak edirdi.***



İclası RİH Başçısı Əhməd Muxtarov açaraq öncə ölkəmizdə keçirilən prezident seçkilərindən, xalqımızın seçkilərdə göstərdiyi mütəşəkkillikdən, seçkilərin demokratik və azad keçirildiyindən danışdı. Seçkilərdə səs çoxluğu ilə yenidən Prezident seçilən İlham Əliyevin xalqa, millətə göstərdiyi diqqət və qayğını dilə gətirdi, ölkəmizin ictimai-siyasi, mədəni həyatında, aqrar sektorda əldə olunan nailiyyətləri qeyd etdi. Vurğuladı ki, aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.



Iclasda 2018-ci ilin birinci rübünün yekunlarının müsbət olduğunu, Azərbaycanın bu müddət ərzində uğurla inkişaf etdiyini, gücləndiyini, qarşıda duran vəzifələrin artıqlaması ilə yerinə yetirildiyini qeyd edən dövlət başçısı bu müsbət dinamikanın ilin sonuna qədər saxlanılacağına və ölkənin 2018-ci ili uğurla başa vuracağına əminliyini ifadə edib.

Dövlət başçısı bildirib ki, 2018-ci ilin birinci rübündə ölkə iqtisadiyyatına 3,5 milyard dollar sərmayə qoyulubdur ki, bunun böyük əksəriyyəti xarici sərmayədir. Birinci rübdə Azərbaycan iqtisadiyyatı 2,3 %, qeyri-neft sektoru təxminən 3 % artmışdır. Sənaye istehsalı 2,0 %, qeyri-neft sənayesi 10,0 % artmışdır. Kənd təsərrüfatı 4,2 %, o cümlədən bitkiçilik 50,0 %-dən çox artmışdır.

Xarici ticarət dövriyyəsi 31,0 %, ümumi ixrac 24,0 %, qeyri-neft ixracı 37,0 % artmışdır. Valyuta ehtiyatlarımız 2,2 milyard dollar artaraq 44,2 milyard dollar olmuşdur. 2018-ci ilin birinci rübündə 34 min yeni iş yeri yaradılmışdır ki, onlardan 31 mini daimi iş yeridir. Əhalinin gəlirləri təxminən 10,0 % artmış, inflyasiya isə cəmi 4,0 % olmuşdur.

RİH Başçısı ilin birinci rübündə bütün sahələrdə əldə olunan uğur və nailiyyətlərin məhz ölkə prezidentinin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin məntiqi nəticəsi olduğunu diqqətə çatdırdı.

Qeyd etdi ki, 2018-ci ilin birinci rübündə rayon üzrə ümumi məhsul buraxılışının həcmi 58.3 milyon manat olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 7,9 milyon manat və ya 15,8 % çoxdur. Məhsul buraxılışı həcmində qeyri-dövlət sektorunun payı 77,8 % təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 14,7 % çoxdur.

***(Davamı 2-ci səhifədə)***

# RIH Başçısının səyyar görüş-qəbulları davam edir



Növbəti səyyar qəbul-görüş şəhər sakinləri ilə aprelin 13-də rayon Telekommunikasiya Qovşağının akt zalında keçirilmişdir. Tədbirdə rayonun idarə, müəssisə və təşkilat rəhbərləri, şəhər sakinləri iştirak etmişdir.

Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov çıxış edərək son illərdə rayonun sosial-iqtisadi inkişafından, əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlər barədə sakinlərə məlumat vermişdir. Aprelin 11-də keçirilən Prezident seçkilərində şəhər sakinlərinin mütəşəkkilliklə iştirakını nəzərə çatdırmış, hacıqabulluların hər zaman dövlətə və dövlətçiliyə sədaqətli olduqlarını vurğulamışdır.



Görüş zamanı şəhər sakinlərinin müxtəlif məsələlər barədə müraciətləri qeydə alınmış və icrası ilə əlaqədar yerində aidiyyəti təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verilmişdir.

Sakinlər yerlərdə keçirilən görüşlərdən razı qaldıqlarını qeyd edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

* * *

Aprelin 17-də rayonun Abdulabad kəndində keçirilən səyyar qəbulda Abdulabad və Kolanı kəndinin sakinləri iştirak edirdi.

RİH Başçısı görüş iştirakçılarını salamlayaraq qeyd etdi ki, belə görüş qəbulların yerlərdə keçirilməsində məqsəd insanların qayğı və problemləri ilə maraqlanmaq, onların həllinə köməklik göstərməkdir. Vurğuladı ki, Kür çayı yaxınlığında yerləşən kənd abadlığı, yaşıllığı, insanlarının zəhmətsevərliyi, torpağa bağlılığı ilə hər zaman seçilib. Demək olar ki, kəndin heç bir sosial problemi yoxdur. Kənd daimi işıq, qaz, içməli su və təsərrüfat suyu ilə tam təmin olunmuş bir kənddir. Kənd sakinləri isə təsərrüfatla, heyvandarlıq və əkinçiliklə, bostançılıqla məşğuldur. Sovetlər dövründə kənddə böyük pambıq sahələri olub. Bu ənənəvi sahəni inkişaf etdirmək üçün kənd sakinləri bu gün dövlətin qayğı və dəstəyindən bəhrələnərək yenə də pambıq əkib becərirlər.

Kənddə müasir tipli məktəb, bir neçə kommersiya mağazaları, poçt şöbəsi, tibb məntəqəsi fəaliyyət göstərir. Təxminən bir il bundan əvvəl isə kəndə asfalt yol çəkilmişdir.

Kənd sakinləri razılıqlarını bildirərək, qayğı və diqqətə görə RİH Başçısına minnətdarlıqlarını bildirdilər.

* * *

RİH Başçısı Əhməd Muxtarovun daha bir səyyar qəbulu rayonun Atbulaq kəndində keçirildi. Kənd İƏD üzrə nümayəndəliyinin inzibati binasında keçirilən qəbulda Atbulaq və Kürçülü kənd sakinləri iştirak edirdi. Kənd sakinlərinin sosial durumu, iş, məişət şəraiti ilə maraqlanmaq, onların üzləşdiyi bəzi problemləri yerindəcə həll etmək məqsədi ilə görüşə gəlmiş RİH Başçısı Əhməd Muxtarovu və rayonun hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, xidmət idarələrinin rəhbərlərini qəbul iştirakçıları razılıqla qarşıladı.

RİH Başçısı qəbula gələnləri səmimi salamladıqdan sonra kənd sakinlərinin problemlərini, arzu və təkliflərini dinlədi.

Öncə Kürçülü kənd ümumi orta məktəbinin direktoru Rasim Dadaşov söz alaraq məktəbdə görülən işlərə görə minnətdarlığını bildirdi.Kənddə telefon xəttinin olmamasını dilə gətirərək köməklik göstərilməsini xahiş etdi. Atbulaq kənd sakinləri müəllim Rafiq Əhmədov məktəbə gedən yolun bərbad olduğunu qeyd etdi, digər sakin Cəlal Cavadov isə məktəbdə istilik sisteminin olmamasından danışdı və köməklik göstərilməsini xahiş etdi.

Kənd ağsaqqalı Bəbulla Gülmalıyev kənddə salınacaq sənaye məhəllələrində kənd cavanlarını işə cəlb etməkdən danışdı. Digər kənd sakini Adil İsayev övladının işlə təmin olunmasına köməklik göstərilməsini xahiş etdi.

RİH Başçısı kənd sakinlərinin bütün müraciət, problem və xahişlərini dinlədikdən sonra həlli üçün aidiyyatı təşkilatlara tapşırıq və tövsiyyələrini verdi.

***"Hacıqabul"***





# Xoş xatirələrlə yad edildi

Görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın anadan olmasının 95 illiyi ilə əlaqədar rayon Heydər Əliyev Mərkəzində anım mərasimi keçirildi. Əvvəlcə görkəmli oftalmoloq Zərifə xanım Əliyevanın həyatından bəhs edən film nümayiş olundu.

Rayon İcra Hakimiyyəti Başçısının müavini Zeynəb Yunusova mərasimi açaraq akademik Zərifə xanım Əliyevanın zəngin ömür yolundan, pedaqoji fəaliyyətindən, tibb elminə verdiyi töhfələrdən danışdı.

Öz parlaq fəaliyyəti ilə Azərbaycan tibb elminə əbədi həkk olunmuş şərəfli və mənalı bir ömür yaşadığını, onun elmin çətin yollarında inamla irəliləyərək oftalmologiyanın ən uca pillələrinə yüksəldiyini, çox məsuluyyətli, eyni zamanda ibrətamiz, nümunəvi bir həyat yolu keçdiyini vurğuladı. Qeyd edildi ki, Azərbaycan tibb elminin , xüsusilə onun az inkişaf etmiş oftalmologiya sahəsinin inkişafında müstəsna xidmətləri olan Zərifə xanım yorulmaz fəaliyyəti ilə insanlara daim nur bəxş edib, gözlərə işıq verib. Onun şəfalı əlləri ilə minlərlə xəstə müalicə olunub.

Tədbirdə çıxış edən rayon Mərkəzi Xəstəxanasının baş həkimi Beydulla Qarayev, YAP rayon təşkilatının sədri Hafiz Bəşirov, Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru Aysel İbrahimova qeyd etdilər ki, Zərifə Əliyeva görkəmli alim olmaqla yanaşı, həm də kövrək qəlbli insan, ümummilli lider Heydər Əliyevin qayğıkeş və sevimli həyat yoldaşı, övladlarına gözəl tərbiyə verən mehriban ana olub. Zərifə xanım ailəsini, övladlarını bütün varlığı ilə sevən əsl Azərbaycan qadını idi. Qeyd olundu ki, görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdü. Keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi onun adı oftalmologiya elminin tarixinə düşüb. Zərifə xanımın fəxri adları, titulları, mükafatları çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir.

Zərifə xanım Əliyevanın işıqlı və nurlu siması, parlaq xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır.

***"Hacıqabul"***

# Mədəni-kütləvi tədbir keçirildi



"Gənclərin hərbi xidmətə həvəsləndirilməsi və ordu sıralarına yola salınması" münasibəti ilə rayon Mədəniyyət evində Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə çağırış yaşlı gənclər üçün təşkil olunmuş mədəni-kütləvi tədbir keçirildi.

Tədbirdə Gənclər və İdman Nazirliyinin Vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi sektorunun müdiri Əli Məmmədov və rayon İcra Hakimiyyətinin məsul işçisi Elvin Şıxəliyev gənclər qarşısında çıxış edərək gənc nəslin sağlam ruhda, vətənpərvər və vətənə layiqli vətəndaş kimi yetişdirilməsinin respublikamızda dövlət siyasətinin üstün istiqamətlərindən olduğunu qeyd etdilər. Vurğuladılar ki, gənc nəslin bu gün həvəslə ordu sıralarına yollanması, əsgərlərimizin cəbhədə düşmənin təxribatlarının mərd-mərdanə qarşısını alması hər birimizin qəlbində iftixar hissi oyadır.

Tədbirdən sonra respublikanın gənc istedadlı incəsənət nümayəndələrinin iştirakı ilə konsert proqramı keçirildi.

***"Hacıqabul"***

# Hacıqabul rayonunun sosial-iqtisadi inkişaf dinamikası birinci rübdə də davam etmişdir

*(Əvvəli 1-ci səhifədə)*

Bu ilin 3 ayında kənd təsərrüfatı məhsulunun həcmi 2288,9 min manat artaraq 26131,9 min manat, sənayedə məhsul buraxılışının həcmi 3945,9 min manat artaraq 5649,8 min manat, ticarətdə məhsul buraxılışının həcmi 1560,8 min manat artaraq 18734,3 min manat olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatında 9,6 %, sənayedə 31,6 %, ticarətdə 9,1 % artım müşahidə edilmişdir.

Rayonda bu ilin məhsulu üçün 41951,0 hektar taxıl əkilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 27542 hektar çoxdur. Bu sahələrin 31288,0 hektarını buğda, 10663,0 hektarını isə arpa əkini təşkil edir.

Hesabat dövründə 286 hektarda tərəvəz, 62 hektarda bostan, 20 hektarda kartof, 117 hektarda şəkər çuğunduru əkilmişdir.

Hesabat dövründə rayonda 5059 ton süd, diri çəkidə 2316 ton ət, 73806 min ədəd yumurta istehsal edilmişdir.

Rayon üzrə iribuynuzlu heyvanların baş sayı 406 baş və ya 1,05 % artaraq 38922 başa, xırda buynuzluların sayı isə 894 baş və ya 0,66 % artaraq 137136 başa çatmışdır. Quşların baş sayı 384,9 min baş və ya 11,27 % artaraq 3799,0 min baş olmuşdur.

"Aqrolizinq" vasitəsilə hesabat dövründə kənd əməkçilərinə 264,25 ton müxtəlif növ mineral gübrələrin və ziyanvericilərə qarşı 1,085 litr kimyəvi maddənin 70 % güzəştlə satışı həyata keçirilmişdir.

Cari ildə rayonumuzda 1300,0 ha sahədə pambıq əkiləcəkdir ki, bu da keçən ilin pambıq əkinindən 96,1 ha və ya 10,7 % çoxdur. Pambıq əkini ilə bağlı istehsalçılar ilə "Hacıqabul Kənd Təsərrüfatı MMC" arasında xam pambığın istehsalı və alqı-satqısına dair müqavilələr bağlanmışdır. Hal-hazırda intensiv səpin işləri həyata keçirilir. Məqsədimiz əkiləcək pambıq sahələrinə yüksək qaydada aqrotexniki qulluq göstərməklə 2600 tondan çox pambıq istehsal etməkdir.

Rayonda baramaçılığın inkişafı da mühüm əhəmiyyət kəsb edən sahələrdən biridir. Bu məqsədlə ötən illərdə rayon ərazisində 38 000 ədəd tut (çəkil) ağacının əkilməsi həyata keçirilmişdir və cari ildə də bu iş davam etdiriləcəkdir. Əkilmiş tut tinglərinə aqrotexniki qaydada qulluq edilir, becərilir və vaxtında suvarılır. Cari ildə rayonda 3,0 ton barama istehsalı nəzərdə tutulmuşdur.

Rayonda aqroparkların yaradılması istiqamətində bir sıra işlər həyata keçirilmişdir.

Hacıqabul rayonunun Padar qəsəbəsi ərazisində "Azərsun" Holding tərəfindən 1625 hektar sahədə iri aqropark yaradılmışdır. Bu aqroparkda infrastruktur yaradılmış, pivot suvarma sistemi quraşdırılmış, texnikalar alınmış, ofis, anbar, işçilər üçün yeməkxana, texnikalar üçün qaraj tikilmişdir. 417,0 ha sahədə buğda, 100,0 ha sahədə arpa, 117,0 ha sahədə şəkər çuğunduru əkilmişdir. 70 ha sahədə pambıq, 978,0 ha sahədə qarğıdalı, 98,0 ha sahədə soya əkilməsi həyata keçiriləcəkdir. Aqroparkda illik istehsal gücü 20,000 ton süd olan 2000 başlıq heyvandarlıq (iri buynuzlu mal-qara) kompleksində son tamamlama işləri həyata keçirilir, ilkin mərhələdə 231 baş cins iri buynuzlu mal qara gətirilmiş, mərhələlərlə heyvanların gətirilməsi davam etdirilir.

Hacıqabul rayonunun Atbulaq kəndində yerləşən 19,91 hektar torpaq sahəsində "AZERBROOD" MMC tərəfindən illik istehsal gücü 9,6 milyon ədəd yumurta olan quşçuluq müəssisəsinin tikintisi işləri davam etdirilir. Tikinti işləri başa çatdıqdan sonra burada 100 nəfərin məşğulluğu təmin olunacaqdır.

Hacıqabul rayonunun Atbulaq kəndində "Hajigabul Greenhouse" MMC tərəfindən 17,0 hektar ərazidə müasir tipli istixananın tikintisi davam etdirilir. 10 ha sahədə İspaniya texnologiyası ilə istixana tikilir. Layihənin ümumi dəyəri təxminən 40,0 mln. manatdır. Kompleksin 5,0 hektarında tikinti işləri başa çatmış, qalan 5 hektarda da tikinti işlərinə başlanılmışdır. İstixananın məhsul istehsalı gücü 1,0 ha üçün 250-300 tondur. Kompleksdə tikinti işləri başa çatdıqdan sonra burada 150-180 nəfər işlə təmin olunacaqdır.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 iyul tarixli Sərəncamına əsasən Hacıqabul rayonunda Hacıqabul Sənaye Məhəlləsi yaradılmış, onun fəaliyyətinin təşkili və tənzimlənməsi "Azərbaycan İnvestisiya Şirkəti" ASC-yə həvalə olunmuş, fəaliyyət göstərməzi üçün ayrılacaq 20,0 hektar torpaq sahəsinin məqsədli təyinatının dəyişdirilərək sənaye kateqoriyasına keçirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılmışdır.

Rayonun qəsəbə və kəndlərində geniş vüsət alan yaşıllaşdırma kompaniyası 2018-ci ilin birinci rübündə də davam etdirilərək 4500 ədəd ağac və 3000 ədəd gül kollarının əkilməsi həyata keçirilmişdir. Yaşıllığın salınması və ona qulluq bu gün də davam etdirilir.

Məruzə ətrafında rayon Mərkəzi Xəstəxanasının baş həkimi Beydulla Qarayev, rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Nurbala Mirzəyev, şəhər İƏD üzrə nümayəndə Laləzar İbrahimova, rayon Su Kanal İdarəsinin rəisi Məhəbbət Nağıyev çıxış etdilər.

Hesabat yığıncağında məruzə və çıxışlar dinlənilərək RİH Başçısının 2018-ci ilin birinci rübündə gördüyü işlər qənaətbəxş hesab olundu. Müvafiq qərar qəbul edildi.

***"Hacıqabul"***

## Azərbaycan Xalq Cümhuriyyəti - 100

# Şərqdə ilk parlamentli respublika

1991-ci ildə öz müstəqilliyini bərpa edən müasir Azərbaycan Respublikası, 1918-1920-ci illərdə 23 ay ərzində mövcud olan və müsəlman Şərqində ilk dünyəvi, demokratik dövlət kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, həmin dövr üçün mütərəqqi hesab edilən dövlət təsisatlarının yaradılmasına nail olmuşdur. Gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və sair sahələrdə həyata keçirdiyi işlər Azərbaycan xalqının tarixinin parlaq səhifəsidir.

İstiqlal Bəyannaməsinin elan edildiyi 1918-ci ilin 28 may tarixi hazırda dövlət müstəqilliyinin bərpa edilməsi günü - Respublika Günü kimi qeyd edilir.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi əbədi daxil olmuşdur. Həmin tarix Respublika günü kimi təntənə ilə qeyd edilir.

Cümhuriyyət dövründə Azərbaycanda parlamentçilik ənənələri getdikcə möhkəmlənir və inkişaf edir, ən müasir parlament mədəniyyəti formalaşırdı.

Parlamentin fəaliyyəti xüsusi olaraq bir məqsəd üçün hazırlanmış nizamnamə - «Azərbaycan Parlamentinin nakazı (təlimatı)» əsasında idarə olunurdu.

Sovet Rusiyasının hərbi müdaxiləsi və XI Qızıl Ordu hissələrinin qanlı hərbi əməliyyatları nəticəsində Şimali Azərbaycan yenidən Rusiyanın tərkibinə qatılsa da, Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın azadlıq hərəkatı tarixində dərin iz qoydu. Cəmi 23 ay yaşamasına baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, ən qəddar müstəmləkə və repressiya rejimləri belə, Azərbaycan xalqının azadlıq ideallarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir.

Azərbaycan xalqının tarixində ilk Parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda, bütün Şərqdə, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

Azərbaycan Xalq Cümhuriyyəti özünün siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın ənənəvi demokratik respublikalarından heç də geri qalmırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın dövlətçilik və ictimai-siyasi fikir tarixində rolu misilsizdir.

Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, Azərbaycan xalqı müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadirdir.

Azərbaycan xalqı 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin ideallarını davam etdirərək bu tarixi varislik üzərində yeni müstəqil Azərbaycan dövlətini yaratmışdır.

***Camal Cəfərova,***
***rayon Qeydiyyat Şöbəsinin rəisi, ədliyyə müşaviri***



# Vətənin keşiyinə yollanırlar

***Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il aprel ayının 1-dən 30-dək həqiqi hərbi xidmətə çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin 6 mart 2018-ci il tarixli 3756 saylı sərəncamına əsasən vətəndaşların Azərbaycan Respublikası Silahlı Qüvvələrinin həqiqi hərbi xidmətə çağırışı keçirilir.***

Bu münasibətlə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Hacıqabul rayon şöbəsində mərasim keçirilmişdir. Mərasimdə həqiqi hərbi xidmətə çağılılmış gənclər, onların valideynləri, rayon İcra Hakimiyyətinin və SHXÇDX rayon şöbəsinin məsul işçiləri iştirak etmişlər. Mərasim Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlanmışdır.

Tədbiri açan SHXÇDX-nın rayon şöbəsinin rəisi, polkovnik-leytenant Nurlan Abbasov həqiqi hərbi xidmətə yola salınan gəncləri, onların valideynlərini təbrik etmiş, gənclərə uğurlu hərbi xidmət arzulamışdır.Qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti, gərgin səyləri nəticəsində son illər Ordumuzun maddi texniki bazası xeyli gücləndirilmiş, Silahlı Qüvvələrin şəxsi heyətində keyfiyyətli kadr dəyişikliyi aparılmışdır. 2016-cı ilin Aprel döyüşləri Azərbaycan əsgərinin nəyə qadir olduğunu bir daha göstərdi.

Mərasimdə çıxış edən rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Aslan Səmədov həqiqi hərbi xidmətə yola düşən gənclərə müraciət edərək dedi:

-Əziz gənclər, Siz bu gün müqəddəs borcunuzu yerinə yetirməyə, Vətənimizin keşiyində dayanmaq üçün yola düşürsünüz. Yolunuz uğurlu olsun. Hansı bölgədə xidmət etsəniz Vətənin keşiyində ayıq-sayıq durun. A.Səmədov çıxışının sonunda Ulu öndərimiz Heydər Əliyevin sözlərini mərasim iştirakçılarına, hərbi xidmətə yola düşən gənclərimizə xatırladaraq dedi:" Azərbaycan Ordusunda xidmət etmək hər bir gəncin vətəndaşlıq borcudur, hər bir gənc üçün böyük şərəfdir. Hamınıza uğurlu hərbi xidmət arzu edirəm. Gün o gün olsun, xidmətinizi şərəflə başa vurub el-obanıza, valideynlərinizin yanına qayıdasınız"

Mərasimin sonunda çağırış yaşı tamam olmuş gənclər üçrəngli Dövlət Bayrağını öpərək həqiqi hərbi xidmətə yola düşdülər. Onları valideynləri və SHXÇDX rayon şöbəsinin zabitləti kapitan Elçin Əliyev, kapitan Nadir Əzizov, baş çavuş Rauf Həmidov yola saldılar.

Həqiqi hərbi xidmətə yola düşən gənclərimizdən Kazım Abbasov (Talış kəndi), Tofiq Səmədov (Kolanı kəndi), Nəsib Zeynalov (Navahı qəsəbəsi), Hüseyn Məmmədli (Hacıqabul şəhəri), Elşən Nuralıyev (Pirsaat qəsəbəsi)

Vətənə əsl vətəndaş kimi vicdanla, namusla xidmət edəcəklərini, valideynlərinin başını uca edəcəklərini bildirdilər.

***Nazim Fətixanoğlu***

# 2017-ci ildə Hacıqabul rayonunun sosial, iqtisadi inkişafı

2017-ci ildə Hacıqabul rayonunun iqtisadi və sosial həyatında son illərdə müşahidə olunan yüksəliş nəzərə çarpacaq dərəcədə yenə davam etmiş və rayonun iqtisadiyyatının inkişafını əks etdirən makrogöstəricilər ötən ilin müvafiq dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

**Əhali.** Hacıqabul rayonu 1990-cı ildə yaranmışdır. Ərazisi 1,60 min kv.km-dir və respublika ərazisinin 1,9 faizini təşkil edir. Rayon üzrə əhalinin sıxlığı 1 kv.km-ə 46 nəfər təşkil edir. Hacıqabul rayonu respublikanın Abşeron, Qaradağ, Qobustan, Salyan, Sabirabad, Kürdəmir, Ağsu, Şamaxı rayonları və Şirvan şəhəri ilə həmsərhəddir. Rayonun özü 25 kənd, 5 qəsəbə və 1 şəhərdən ibarətdir.

2018-ci il yanvarın 1-i vəziyyətinə Hacıqabul rayonunun əhalisinin sayı 74,7 min nəfər, o cümlədən, şəhər əhalisinin sayı 37,4 min nəfər, kənd əhalisinin sayı isə 37,3 min nəfər olmuşdur. 2017-ci ilin yanvar-dekabr ayları ərzində rayon əhalisinin sayı 1,1 min nəfər və yaxud 1,3 faiz artmışdır. Araşdırılan dövrdə Hacıqabul rayonunda 421 nəfər qaçqın, 1609 nəfər məcburi köçkün məskunlaşmışdır. Rayon əhalisinin 50,6 faizini qadınlar, 49,4 faizini kişilər təşkil edir. Hacıqabul rayonunda əhalinin milli tərkibində əsas yeri ötən illərdə olduğu kimi azərbaycanlılar, ruslar və türklər tutmuşdur.

2017-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonunda 1260 doğum və 420 ölüm faktı qeydə alınmışdır. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə doğulanların sayı 20,1-dən 17,0-ə qədər, ölənlərin sayı əhalinin hər 1000 nəfərinə 5,8-dən 5,7-yə qədər azalmışdır.

2017-ci il ərzində rayonun VVADQ orqanları tərəfindən 477 nigah və 78 boşanma qeydə alınmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə rəsmi qeydə alınan nigahların sayı 6,8-dən 6,4-ə qədər azalmış, boşanmaların sayı isə 1,1-dən 1,5-ə qədər artmışdır.

2017-ci ilin yanvar-dekabr ayları ərzində Hacıqabul rayonuna 229 nəfər qeydiyyata düşmüş, 94 nəfər isə qeydiyyatdan çıxmışdır. Beləliklə, bu dövrdə rayonda miqrasiya saldosu müsbət 135 nəfər olmuş və rayonda əhalinin ümumi artımı 975 nəfər təşkil etmişdir.

**Səhiyyə.** Hesabat dövründə Hacıqabul rayonunda 106 çarpayılıq 2 xəstəxana, 12 ambulatoriya müəssisəsi əhaliyə müxtəlif səhiyyə xidmətləri göstərmişdir. Bu səhiyyə müəssisələrində 60 həkim, 189 nəfər orta tibb işçisi çalışmışdır.

2017-ci ilin yanvar-dekabr aylarında rayon əhalisinin hər on min nəfərinə 7,8 həkim, 24,1 orta tibb işçisi, 14,2 xəstəxana çarpayısı düşmüşdür. Səhiyyə ocaqlarına müxtəlif xəstəliklərdən 194061 xəstə müraciət etmiş və onlardan 2219 nəfəri xəstəxana şəraitində müalicə olunmuşdur. Bu dövrdə qeydə alınmış xəstəliklər arasında qan dövranı xəstəlikləri, endokrin xəstəlikləri, əsəb sistemi xəstəlikləri üstünlük təşkil etmişdir.

**Təhsil və Mədəniyyət.** 2017-2018-ci tədris ilinin əvvəlinə rayonda 33 ümumtəhsil məktəbi fəaliyyət göstərmişdir. Bu təhsil müəssisələrində 10686 nəfər şagird qeydə alınmışdır ki, bu da ötən tədris ili ilə müqayisədə 346 nəfər və yaxud 3,3 faiz çoxdur. Hesabat dövründə rayon təhsil sistemində 933 nəfər işçi çalışmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 85 nəfər və yaxud 10,0 faiz çox olmuşdur. 2017-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonunda 3 məktəbəqədər müəssisə fəaliyyət göstərmişdir ki, bu müəssisələrdə tərbiyə alan uşaqların sayı 170 nəfər, işləyənlərin sayı isə 47 nəfər təşkil etmişdir.

Mədəniyyət sahəsinə gəldikdə isə qeyd etmək lazımdır ki, Hacıqabul rayonu üzrə 27 kütləvi kitabxana, 19 klub müəssisəsi fəaliyyət göstərmişdir. 2017-ci ilin yanvar-dekabr aylarında rayonun mədəniyyət sahəsində çalışanların orta aylıq sayı 238 nəfər təşkil etmişdir.

**Pensiya təminatı.** 2018-ci il yanvarın 1-nə Hacıqabul rayonunda 7549 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuş, onlara təyin olunmuş aylıq pensiyaların orta məbləği isə 180,9 manat təşkil etmişdir. Qocalığa görə pensiya təyin olunmuşların sayı 4206, əlilliyə görə 2013, ailə başçısının itirilməsinə görə isə 1330 nəfər olmuşdur. 2018-ci il yanvarın 1-i vəziyyətinə 3710 nəfər müavinət alan qeydiyyatda olmuş, təyin olunmuş aylıq müavinətlərin orta məbləği 71,5 manat təşkil etmişdir. 2018-ci il yanvarın 1-i vəziyyətinə rayonda 656 nəfərə ünvanlı dövlət sosial yardımı təyin olunmuşdur. Bir nəfərə düşən yardımın orta aylıq həcmi 33,6 manat olmuşdur.

**Əmək bazarı.** Əhalinin həyat səviyyəsinin formalaşmasında digər amillərlə yanaşı məşğulluğun dəyişməsi və onun əmək bazarına təsiri mühüm rol oynayır. 2018-ci il yanvarın1-i vəziyyətinə Hacıqabul rayonunda işləyən və işsiz əhalini əhatə edən iqtisadi fəal əhalinin sayı 36,9 min nəfər olmuşdur. Bu isə ümumi rayon əhalisinin tərkibinin 49,5 faizini təşkil edir. İqtisadi fəal əhalinin tərkibində məşğul əhalinin xüsusi çəkisi 98,3 faiz, məşğulluq xidmətləri orqanı tərəfindən işsiz statusu verilmişlərin xüsusi çəkisi isə 1,7 faiz olmuşdur. Rayon üzrə məşğul əhalinin 15,2 faizi dövlət sektorunda, 84,8 faizi isə qeyri-dövlət sektorunda çalışır. Rayon məşğulluq xidməti orqanı tərəfindən 2018-ci il yanvarın 1-nə rəsmi işsiz statusu almış şəxslərin sayı 632 nəfər kimi qeydə alınmışdır. Bu işsizlərin 49,1 faizini qadınlar, 50,9 faizini kişilər təşkil etmişdir.

Əhalinin həyat səviyyəsinin göstəricisi olan orta aylıq nominal əmək haqqı göstəricisi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz artaraq 313,7 manat olmuşdur. Rayonda muzdla işləyən bir qadın işçinin orta aylıq nominal əmək haqqı göstəricisi isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz artaraq 261,1 manat təşkil etmişdir. Ən yüksək əmək haqqı göstəricisi maliyyə, nəqliyyat, rabitə, tikinti, idarəetmə sahələrində qeydə alınmışdır.

2017-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonunda 1931 yeni iş yeri açılmışdır ki, bunların da bilavasitə 1585-i daimi iş yerləridir.

**Məhsul buraxılışı.** 2017-ci ildə Hacıqabul rayonunda iqtisadiyyatın bütün sahələri üzrə məhsul buraxılışının həcmi 324751,5 min manat olmuşdur. Məhsul buraxılışının əsas hissəsi kənd təsərrüfatı (39,1 faiz), ticarət və xidmət (23,9 faiz), tikinti (30,0 faiz) sektorlarının payına düşmüşdür. Sənaye, rabitə və nəqliyyat sahəsində məhsul buraxılışının xüsusi çəkisi isə müvafiq olaraq 5,8 faiz, 0,2 faiz və 1,0 faiz olmuşdur. 2017-ci ilin yanvar-dekabr aylarında rayon iqtisadiyyatının istehsal sahələrində məhsul buraxılışının həcmi 243121,0 min manat, xidmət sahələrində isə 81630,5 min manat olmuşdur. Rayonun məhsul buraxılışı həcmində istehsal sahələrinin payı 74,9 faiz, xidmət sahələrinin payı isə 25,1 faiz təşkil etmişdir.

**Kənd təsərrüfatı.** Hacıqabul rayonunun iqtisadiyyatının əsas hissəsini kənd təsərrüfatı təşkil edir. Rayonun iqtisadiyyatında taxılçılıq, pambıqçılıq, tərəvəzçilik, bostançılıq və heyvandarlıq aparıcı rol oynayır.

*(Davamı 4-cü səhifədə)*

## Aqrar sahə

# Bu günün zəhməti, sabahın bolluğudur

***“Qarasu kəndində yaşayıram. Həyatımı bütünlüklə torpağa bağlamışam. Bu bağlılıq ailəmizə firavan həyat, xoş güzaran gətirib. Uzun illər taxılçılıqla məşğul olmuşam. Respublika Prezidenti cənab İlham Əliyev ənənəvi sahə kimi pambıqçılığın dirçəldilməsi, bu sahənin yenidən inkişaf etdirilməsi təşəbbüsü ilə sərəncam verəndən sonra bir kənd adamı, fermer kimi pambıq əkini ilə məşğul olmağa başladım. 3-cü ildir ki, pambıq əkirəm. Keçən il hər hektardan 15 sentiner məhsul görürməyə nail oldum. Yaşadığım Qarasu kəndi nisbətən pambıq əkini üçün əlverişli olmasa da, cənab Prezident bu sahənin inkişafına yaşıl işıq yandırdığı, pambıqçılığa Dövlət tərəfindən göstərilən diqqət və qayğı məni də torpağa bağlı bir insan kimi yaxşı işləməyə ruhlandırdı. Bu il də keçən il olduğu kimi 110 hektar sahədə pambıq əkməyi planlaşdırmışam. Sahələrdə keyfiyyətli şum aparılmışdır. Səpini səpsuvar üsulu ilə həyata keçirib, pambıq əkini yüksək aqrotexniki tələblər səviyyəsində aparacağam. Çalışacağam ki, bu il hər hektardan 20 sentiner məhsul götürülməsinə nail olum.”***

Qarasu kənd sakini, fermer Murad Abdullayevin dediyi bu sözlərə tam səmimiyyətilə inanırıq. Murad Abdullayev bu il ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Bərdədə keçirilmiş pambıqçılığın inkişafına dair ümumrespublika müşavirəsində iştirak etmişdir. O bu şərəfə əlbəttə ki, öz işgüzarlığı, zəhmətkeşliyi sayəsində nail olmuşdur. Rayonumuzda torpağa ürəkdən bağlanan, çörəyini torpaqdan çıxaran insanlar çoxdur.

Onlardan biri də Natiq Dostəliyevdir.

Natiq Kolanı kəndində yaşasa da hər il Meyniman kəndində 70 hektar sahədə pambıq əkir. Bu il də istisna təşkil etmir.

Natiq bu işə öz ailə üzvlərini, qohumlarını da səfərbər etmişdir. Qabaqcıl fermer qış aylarında dondurma şumunu keyfiyyətlə aparmış, sahələr vaxtında qış aratına qoyulmuşdur. Bu il aprelin 11-dən etibarən əkin sahələrində çiyid səpininə başlanılmışdır.

*(Davamı 4-cü səhifədə)*

# HACIQABUL

№ 09 (689) 26 aprel 2018-ci il


# 2017-ci ildə Hacıqabul rayonunun sosial, iqtisadi inkişafı

*(Əvvəli 3-cü səhifədə)*

Bununla yanaşı rayonun təsərrüfatlarında qarğıdalı, kartof, meyvə və üzüm məhsulu da istehsal edilir. İlk dəfə olaraq Hacıqabul rayon ərazisində soya və şəkər çuğunduru bitkilərinin əkininə də başlanılmışdır. Belə ki, rayon üzrə 4786,9 hektar sahəyə yazlıq bitkilər, o cümlədən 667 hektar sahəyə çoxillik otlar, 100 hektar sahəyə yazlıq arpa, 427 hektar sahəyə tərəvəz, 828 hektar sahəyə bostan bitkiləri, 807 hektar sahəyə dən üçün qarğıdalı, 156 hektar sahəyə soya, 556 hektar sahəyə şəkər çuğunduru, 1203,9 hektar sahəyə pambıq, 42 hektar sahəyə kartof əkilmişdir.

Keçən illə müqayisədə cari ilin çoxillik otları sahəsi 5,5 faiz, kartof sahəsi 5,0 faiz, qarğıdalı sahəsi 2,3 dəfə, pambıq sahəsi 2,3 dəfə, soya sahəsi 3,9 dəfə, şəkər çuğunduru sahəsi 3,5 dəfə çox olmuşdur.

Əkilmiş 21511,9 hektar sahənin 14409 hektarını və ya 67,0 faizini payızlıq və yazıq dənli bitkilərin, 807 hektarını və ya 3,8 faizini qarğıdalı, 427 hektarını və ya 2,0 faizini tərəvəz, 828 hektarını və ya 3,8 faizini ərzaq üçün bostan, 42 hektarını və ya 0,2 faizini kartof, 1915,9 hektarını və ya 8,9 faizini texniki bitkilərin, 3083 hektarını və ya 14,3 faizini keçmiş illərin əkinləri də nəzərə alınmaqla yem bitkilərinin əkin sahəsi təşkil edir. 2017-ci ilin məhsulu üçün əkilmiş 14409 hektar sahədən 44861 ton taxıl məhsulu yığılmışdır. Mövsüm ərzində 7478 hektar sahədən 24136 ton buğda, 6931 hektar sahədən isə 20725 ton arpa məhsulu toplanmışdır. Ümumilikdə rayon üzrə taxıl bitkilərinin məhsuldarlığı hər hektara 31,1 sentner, o cümlədən buğda məhsulu üçün 32,3 sentner, arpa məhsulu üçün 29,9 sentner olmuşdur. 2017-ci ildə rayonun kənd əməkçiləri 427 hektar sahədən 6823 ton tərəvəz məhsulu yığmışdır. Mövsüm dövrü ərzində rayon üzrə 828 hektar sahədən 11675 ton bostan məhsulu, 42 hektar sahədən 461 ton kartof məhsulu, 807 hektar sahədən 5142 ton qarğıdalı məhsulu, 556 hektar sahədən 25501 ton şəkər çuğunduru, 156 hektar sahədən 190 ton soya məhsulu yığılmışdır. 2017-ci ildə rayon üzrə 1203,9 hektar sahədən 1280,5 ton pambıq məhsulu yığılmış, xalis kondisiya çəkidə 1000,2 ton pambıq təhvil verilmişdir. Mövsüm ərzində rayon üzrə 11314 ton meyvə, 262 ton üzüm toplanmışdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə meyvə istehslaı 109 ton, üzüm istehsalı 1 ton çox olmuşdur.

Cari mövsüm dövründə 2018-ci ilin məhsulu üçün rayon üzrə 41951 hektar sahədə payızlıq taxıl bitkilərinin, o cümlədən, 31288 hektar sahədə buğda, 10663 hektar sahədə isə arpa bitkisinin əkinləri baş tutmuşdur.

2017-ci il ərzində təqdim olunan statistik məlumatlara və müvafiq hesabatlara görə bütün təsərrüfat kateqoriyalarında 8274 ton diri çəkidə ət, 17253 ton süd, 350497 min ədəd yumurta və 228 ton yun istehsal olunmuşdur. 2016-cı illə müqayisədə diri çəkidə ət istehsalı 13,1 faiz azalmış, süd istehsalı 0,1 faiz, yumurta istehsalı 7,1 faiz, yun istehsalı 1,3 faiz artmışdır.

Rayonda 2018-ci il yanvarın 1-i vəziyyətinə 38798 baş iri buynuzlu mal- qara, o cümlədən 16424 baş inək və camış və 136906 baş qoyun və keçi mövcud olmuşdur. 2016-cı illə müqayisədə qaramalın sayı 384 baş və ya 0,9 faiz, ana inək və camışların sayı 179 baş və ya 1,1 faiz, qoyun və keçilərin sayı isə 950 baş və ya 0,7 faiz artmışdır.

**Sənaye.** 2017-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonu üzrə qeydə alınmış sənaye müəssisələrindən 10-u fəaliyyət göstərmiş və onların 7-si iri, 3-ü isə kiçik sənaye müəssisəsidir. 2017-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonu üzrə sənaye sahəsində faktiki qiymətlərlə 18922,4 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Sənaye sahəsində faktiki qiymətlərlə məhsul istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 4,3 dəfə artmışdır. Sənaye sahəsində rayon üzrə işin həcminin 33,5 faizi sənaye xarakterli xidmətlər, 66,5 faizi isə məhsul istehsalı olmuşdur. 2017-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonu üzrə sənaye xarakterli xidmətlərin həcmi 6339,3 min manat, sənayedə istehsalın həcmi isə 12583,1 min manat olmuşdur. Hesabat dövrü ərzində əmtəəlik 124,8 Qvt.saat elektrik enerjisi, 31,2 mln.kubmetr təbii qaz, 0,2 min Qkal. buxar, 13,7 min manatlıq tullantı suları, 1595,4 min kv.m keramik metlak, 52,5 ton çorək, 71,8 ton heyvan yemləri, 66 ədəd metal qapı və pəncərələr istehsal olunmuş və istehlakçılara göndərilmişdir.

2017-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonunun sənaye sahəsində işləyənlərin sayı 1284 nəfər olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu sahədə çalışanların say göstəricisi 129,7 faiz təşkil etmişdir.

Sənayedə çalışanlara 4595,9 min manat əmək haqqı hesablanmış, bir işçiyə düşən orta aylıq nominal əmək haqqı göstəricisi 298,2 manat təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə sənayedə çalışan bir işçiyə hesablanmış orta aylıq nominal əmək haqqı göstəricisi 0,5 faiz artmışdır.Təbii qaz təchizatı sahəsində çalışanların orta aylıq nominal əmək haqqı göstəricisi rayon üzrə orta aylıq əmək haqqı göstəricisindən daha yüksək olmuşdur.

**Nəqliyyat və rabitə.** 2018-ci ilin əvvəlinə rayonda 6190 ədəd avtomobil mövcud olmuşdur ki, bunlardan da 82,5 faizi minik, 14,6 faizi yük, 1,9 faizi sərnişin avtobusları, 1,0 faizi isə digər təyinatlı avtomobillər olmuşdur. Hazırda Hacıqabulda hər 100 ailəyə 36 şəxsi minik avtomobili düşür.

2017-ci ilin yanvar-dekabr aylarında avtomobil nəqliyyatı ilə hüquqi və fiziki şəxslər tərəfindən 267,0 min ton yük, 5821 min nəfər sərnişin daşınmışdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə rayonda nəqliyyat sektorunda yükdaşımaların həcmi 3,1 faiz, sərnişin daşınmaların həcmi isə 3,3 faiz armışdır.

Rayon əhalisinin telefon təminatını inkişaf etdirmək üçün 7160 nömrə tutumuna malik olan 17 ATS fəaliyyət göstərmişdir. Əsas telefon aparatlarının sayı 6300 nömrə təşkil etmiş, onların 93,6 faizi əhalinin istifadəsinə verilmişdir. Rayonda hər 100 ailədən 42-nin telefon təminatı vardır.

2017-ci ilin yanvar-dekabr aylarında rayonda rabitə sektorunda 624,9 min manatlıq xidmətlər qeydə alınmışdır. Bu dövr ərzində Hacıqabul rayonunun rabitə müəssisələrində çalışanların sayı 43 nəfər olmuşdur ki, bunlardan da bilavasitə 15-i qadınlardır. Rabitə sahəsində çalışanların əmək haqqı fondu 185,3 min manat, bir işçiyə düşən orta aylıq nominal əmək haqqı göstəricisi isə 359,7 manat təşkil etmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə rabitə sahəsində çalışan bir işçinin orta aylıq əmək haqqı göstəricisi 10,1 faiz azalmışdır. Rabitədə çalışan bir qadın işçinin orta aylıq nominal əmək haqqı göstəricisi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,4 faiz artaraq 344,0 manat təşkil etmişdir.

**Tikinti.** Respublikanın bütün rayonlarında olduğu kimi Hacıqabul rayonunda da təmir- tikinti, abadlıq və yol, tikinti işlərinə xüsusi diqqət yetirilir. Bu sahədəki işlər respublika Prezidentinin regionların sosial-iqtisadi inkişafı proqramlarının təsdiqindən sonra daha da intensivləşdirilmişdir.

2017-ci ilin yanvar-dekabr aylarında bütün maliyyə mənbələri hesabına Hacıqabul rayonunda 12775,9 min manatlıq əsas fondlar istifadəyə verilmiş, iqtisadiyyatın və sosial sahələrin inkişafına əsas kapitala 97704,5 min manatlıq investisiyalar yönəldilmişdir. İnvestisiyaların 97309,0 min manatı və ya 99,6 faizi tikinti quraşdırma işlərinə yönəldilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə rayon ərazisində əsas kapitala yönəldilmiş invesitisiyaların həcmi 4,8 dəfə, tikinti quraşdırma istiqamətində investisiyaların həcmi isə 5,1 dəfə artmışdır. 2017-ci il yanvar-dekabr aylarında rayon üzrə adambaşına düşən investisiyanın həcmi 1337,4 manat təşkil etmişdir.

2017-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonu ərazisində 18,1 min kv.m. fərdi yaşayış sahəsi istifadəyə verilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 85,6 faiz təşkil etmişdir.

2017-ci ildə Hacıqabul rayonunda qeydiyyatdan keçmiş tikinti təşkilatlarından 3-ü fəaliyyət göstərmiş və onlar öz gücləri ilə 2344,2 min manatlıq tikinti quraşdırma işləri yerinə yetirmişlər.Tikinti quraşdırma işlərinin faktiki qiymətlərlə həcmi ötən ilin müvafiq dövrünə nisbətən 5,3 faiz artmışdır.

2017-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonunda fəaliyyət göstərmiş podratçı tikinti təşkilatlarında çalışanların orta siyahı sayı 165 nəfər olmuşdur. Bu sahədə çalışanlar üçün hesablanmış əmək haqqı fondu 485,9 min manat təşkil etmiş və bir işçiyə hesablanmış orta aylıq nominal əmək haqqı göstəricisi isə 245,6 manat olmuşdur.

**İstehlak bazarı.** 2017-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonunda ticarətin bütün kanalları vasitəsilə əhaliyə 239768,2 min manatlıq müxtəlif istehlak malları satılmış, əhaliyə 31420,0 min manatlıq ödənişli xidmətlər göstərilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə rayon üzrə pərakəndə əmtəə dövriyyəsinin həcmi 1,2 faiz, ödənişli xidmətlərin həcmi isə 0,8 faiz artmışdır. 2017-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonunda pərakəndə əmtəə dövriyyəsinin həcmi 237455,0 min manat, ictimai iaşə əmtəə dövriyyəsinin həcmi isə 3930,0 min manat olmuşdur. Pərakəndə qaydada realizə olunmuş istehlak mallarının 9,3 faizi qeydiyyatdan keçmiş ticarət təşkilatları, 4,4 faizi əşya, qarışıq mallar və ərzaq yarmarkası, kənd təsərrüfatı bazarı, 86,3 faizi isə digər fiziki şəxslərin payına düşmüşdür. 2018-ci il yanvarın 1-nə ticarət təşkilatlarının anbarlarında 11087,1 min manatlıq əmtəə məhsulları qalığı qeydə alınmışdır. 2017-ci ilin yanvar-dekabr aylarında Hacıqabul rayonunda adambaşına düşən pərakəndə əmtəə dövriyyəsinin orta aylıq həcmi 265,2 manat olmuşdur. Araşdırılan dövr ərzində əhaliyə 31420,0 min manatlıq müxtəlif ödənişli xidmətlər göstərilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 0,8 faiz çoxdur. Dövlət sektorunda olan təşkilatlar tərəfindən əhaliyə 3188,2 min manatlıq, qeyri-dövlət sektorunda olan təşkilatlar tərəfindən isə 28231,8 min manatlıq müxtəlif ödənişli xidmətlər göstərilmişdir. 2017-ci ilin yanvar-dekabr aylarında əhaliyə 6360,0 min manatlıq məişət xidmətləri göstərilmişdir. Əhaliyə göstərilmiş ödənişli xidmətlərin ümumi həcmində məişət xidmətlərinin payı 20,2 faiz olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə məişət xidmətlərinin həcmi 1,1 faiz artmışdır.

**Qiymət indeksləri.** 2017-ci ilin yanvar-dekabr aylarında istehlak məhsullarının və xidmətlərinin ötən ilin müvafiq dövrünə nisbətən qiymət indeksi 113,9 faiz təşkil etmişdir. Bu göstərici rayonda istehlak olunan ərzaq məhsulları üzrə 117,9 faiz, qeyri-ərzaq məhsulları üzrə 112,5 faiz, ödənişli xidmətlər üzrə isə 109,6 faiz təşkil etmişdir.

***Rayon Statistika İdarəsi***

# Ordu sıralarından gələn təşəkkür məktubu



***Hər bir insan üçün vətən anlayışı müqəddəsdir.Vətəni sevən, onu qoruyan şəxs haqqında deyilir ki, o vətənpərvər insandır.Çünki belə adamlar bütün şüurlu fəaliyyətini vətən üçün, onun mənafeyi üçün həsr edirlər.Bizim xalqımızda vətənpərvərlik hissləri həmişə güclü olmuşdur. Bu bizə anamızın laylalarında, nənələrimizin oxşamalarında və hər gün, hər saat ailədə, cəmiyyətdə aşılanan ən əziz hisslərdir.***

Rayonumuzun Talış kəndində yaşayan Zakir Əliyevin ailəsinə Novruz bayramı ərəfəsində Tovuz rayonunun Ağdam kəndində yerləşən "N" saylı hərbi hissədən təşəkkür məktubu gəlmişdir. Ailənin sevincinin həddi-hüdüdü yox idi. Zakir atanın övladı Akil həmin bölgədə ön cəbhədə hərbi hissədə xidmət edir. Akil Azərbaycan İnşaat İnstitutunun Sənayenin İdarə olunması fakultəsini fərqlənmə diploma ilə bitirdikdən sonra ordu sıralarına yollanır. Qısa müddətdə özünü nizam-intizamlı, qorxmaz , cəsur və igid Azərbaycan əsgəri kimi göstərən Akil ona həvalə olunmuş silahı mükəmməl öyrənir,azğın düşmənin məhvi üçün onun imkanlarından istifadə etməyə çalışır. Akil hərbi hissədə vətənpərvərliyi və qayğıkeşliyi ilə yoldaşlarının və hərbi hissə komandirinin hörmətini qazanıb. Əla xidmətinə və nümunəvi intizamına görə dəfələrlə komandanlıq tərəfindən təşəkkür alıb.

Akil müstəqil Azərbaycan Dövlətinin mənafeyini müqəddəs tutaraq, torpaqlarımızın bütövlüyü uğrunda öz əsgəri borcunu layiqincə yerinə yetirir. Vətənimiz Azərbaycanın etibarlı müdafiəçisi olan Akil kimi oğul tərbiyə edib böyütdüyünə görə onun valideynlərinə təşəkkür edir,can sağlığı, uzun ömür, ailə firavanlığı halal və nəcib əməyində uğurlar arzulayırıq. Akil kimi övladınız olduğuna görə fəxr edə bilərsiniz.

Hər bir azərbaycanlı Milli ordumuzun siralarında, üçrəngli bayrağımız altında bu müqəddəs torpağı qorumaq işini özünə şərəf bilməlidir.Ona görə də hər bir insan öncə vətənini,millətini,kökünü,mədəniyyətini tanımalı və sevməli bu sevgini bölüşməlidir.Torpaq o zaman vətən olur ki,onun üzərində yaşayan insanlar onun qədrini bilir,onun nemətlərindən bəhrələnməklə bərabər,onu sevir və qoruyurlar.Vətən ən müqəddəs məfhum olduğuna görə,onu "Ana Vətən "deyə çağırırıq. Vətən qorunmasa ona Vətən demək olmaz, çünki yağı düşmən yatmayıb.

Akil ailəlidir,3 yaşlı körpə Yusif atasının yolunu gözləyir . Bütün əsgərlərimizin və eyni zamanda Akilin sağ- salamat hərbi xidməti borcunu başa vurub evə dönməsini arzulayırıq.

Allah bütün əsgərlərimizi qorusun.

***Afət Piriyeva,***
***şəhər 9 saylı tam orta məktəbin təşkilatçısı***

# Bu günün zəhməti, sabahın bolluğudur

*(Əvvəli 3-cü səhifədə)*

Ümumiyyətlə, rayonumuzda bu il 1300 hektar sahədə pambıq əkilməsi nəzərdə tutulmuşdur. Bunun 1000 hektarı "Hacıqabul KT MMC" tərəfindən tam təminatlı əkin kimi nəzərdə tutulmuşdur. Becərmə işlərinin aqrotexniki tələblər səviyyəsində aparılması üçün rayon Kənd Təsərrüfatı İdarəsi Bitkiçilik Sektorunun baş məsləhətçisi Əliabbas Məmmədov, idarənin mütəxəssisi Zaur Şirəliyev, "Aqrolizinq" rayon şöbəsinin müdiri Yasər İbrahimov hər gün ərazilərdə olur, torpaq mülkiyyətçilərinə, fermerlərə məsləhət və tövsiyyələrini verirlər. Rayon Aqrolizinq şöbəsi vasitəsi ilə pambıq əkini sahələrində çalışan fermerlər müasir texnikalarla təmin olunublar. Becərmə işlərində "Rotasion", "Şirvan" markalı ağır diskli malalardan istifadə olunmuşdur. Həmçinin əkin sahələrində becərmə işləri "Belarus x 80 " traktoru ilə də aparılmışdır. Inşallah, hava şəraitinin yaxşılaşmasından istifadə edən əkinçilərimiz növbəti ongünlükdə çiyid səpinini müvəffəqiyyətlə başa çatdıracaq, bol məhsulun təməlini qoymaq üçün bütün real imkanlardan istifadə edəcəklər.

***Nazim Fətixanoğlu***

## Elan

Kolanı kənd sakini Həsənov İntiqam Ağaməhərrəm oğlunun adına verilmiş JN 272 saylı, kodu 91002028 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

Kolanı kənd sakini Həsənov Seymur Ağaməhərrəm oğlunun adına verilmiş JN 273 saylı, kodu 91002028 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Kapital Bank rayon filialının müdiri Bəxtiyar Bərxudarova atası

**Məmməd Bərxudarovun**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi Bəxtiyar Bərxudarova atası

**Məmməd Bərxudarovun**

vəfatından kədərləndiyii bildirir, dərin hüznlə başsağlığı verir.

"Hacıqabul" qəzetinin redaktoru Xuraman Feyruzqızı və qəzetin kollektivi Bəxtiyar Bərxudarova atası

**Məmməd Bərxudarovun**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.


**HACIQABUL**

**Baş redaktor:**
Xuraman Feyruzqızı

**Həmtəsisçi:**
Qəzetin jurnalist kollektivi
Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son Dakika" çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200